Azərbaycan Respublikası Vergilər Nazirliyinin

19 aprel 2019-cu il tarixli 1917040100411900 №-li

əmri ilə təsdiq edilmiş

.

# Kiçik sahibkarlıq subyektlərinin ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Vergi Məcəlləsinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanmışdır və Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı tətbiq etməklə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidməti ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydalar ƏDV bəyannamələrinin tərtibi ilə bağlı maliyyə sanksiyalarına məruz qalma risklərini, bəyannamənin tərtibatına sərf edilən müddətin və inzibati xərclərin minimallaşdırılması məqsədini daşıyır.

1.3. "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidmətindən istifadə etmək hüququ öz fəaliyyətində yalnız Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatından istifadə edən kiçik sahibkarlıq subyektlərinə məxsusdur.

1.4. "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidməti dedikdə, müvafiq proqram təminatı ilə ƏDV bəyannamələrinin Vergilər Nazirliyinin uçot-baza məlumatları əsasında hazırlanması nəzərdə tutulur.

1.5. "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidməti yalnız vergi orqanı ilə elektron sənəd mübadiləsi haqqında müqavilə bağlayan və bəyannamə və hesabatları elektron formada təqdim edən vergi ödəyiciləri üçün nəzərdə tutulmuşdur.

1.6. Kiçik sahibkarlıq subyektləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli 556 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü Meyarları"na əsasən kiçik sahibkarlıq subyektləri hesab edilən şəxslərdir.

## 2. “ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması” xidmətinin prosedurları

2.1. Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı tətbiq etməklə ƏDV qeydiyyatına alınmış kiçik sahibkarlıq subyektləri “ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması” xidmətindən istifadə etmək və ya imtina etmək üçün qeydiyyatda olduğu vergi orqanına müvafiq Ərizə forması ilə elektron qaydada müraciət etməlidir.

2.2. Vergi ödəyicisi bu xidmətdən istifadə etməklə bağlı ərizə ilə müraciət etdikdə vergi orqanı tərəfindən 5 iş günü ərzində vergi ödəyicisinə “ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması” xidmətinə qoşulması barədə Bildiriş (Əlavə 1), bu Qaydaların 1.3-cü, 1.5-ci və 1.6-cı bəndlərinin tələbləri yerinə yetirilmədikdə isə xidmətə qoşulmadan imtina edilməsi barədə məlumat (Əlavə 2) göndərilir.

Eyni zamanda, vergi ödəyicisi bu xidmətdən imtina etməklə bağlı növbəti hesabat ayı üzrə ƏDV bəyannaməsinin təqdim edilməsi müddətinin başlananadək ərizə ilə müraciət edə bilər. Bu halda vergi orqanı tərəfindən 5 iş günü ərzində vergi ödəyicisinə “ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması” xidmətindən istifadənin dayandırılması barədə məlumat (Əlavə 3) göndərilərək növbəti hesabat dövründə bəyannamənin vergi ödəyicisi tərəfindən təqdim edilməli olduğu bildirilir.

2.3. Bu xidmətdən istifadə hüququ əldə edən vergi ödəyicisinin ƏDV bəyannaməsi hesabat ayı başa çatdıqdan sonra 5 iş günü ərzində müvafiq vergi orqanı tərəfindən elektron formada hazırlanaraq vergi ödəyicisinə göndərilir.

2.4. ƏDV bəyannaməsinin təqdim edilməsi müddəti başa çatanadək göndərilmiş bəyannamə vergi ödəyicisi tərəfindən zərurət yarandığı təqdirdə müvafiq dəqiqləşmələr aparıldıqdan sonra təsdiqlənməlidir.

2.5. ƏDV bəyannaməsinin təqdim edilməsi müddəti başa çatanadək vergi ödəyicisi tərəfindən təsdiqlənmədiyi təqdirdə bu bəyannamə vergi ödəyicisi tərəfindən təsdiqlənmiş hesab olunur və bu barədə ona müvafiq Bildiriş (Əlavə 4) göndərilir.

2.6. Vergi ödəyicisinin bu Qaydaların 1.3-cü bəndində nəzərdə tutulmuş qaydadan başqa digər fəaliyyəti müəyyən edildiyi təqdirdə hesabat ayı başa çatdıqdan sonra 5 iş günü ərzində vergi orqanı tərəfindən bu xidmətin göstərilməsi dayandırılır və bu barədə vergi ödəyicisinə məlumat verilir (Əlavə 5).

## 3. ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması zamanı istifadə olunan məlumatlar

ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması zamanı bir sıra informasiya sistemlərindən, o cümlədən dövlət reyestr, Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı, elektron-qaimə faktura, elektron vergi hesab-faktura, yük gömrük bəyannaməsi, notarius, ƏDV depozit hesabı və əmək müqavilələri bildirişləri üzrə informasiya sisteminin məlumatlarından istifadə olunur.

## 4. Vergi orqanının hüquqları

4.1. Vergi orqanları Vergi Məcəlləsinin 23-cü maddəsində və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq müəyyən edilmiş digər hüquqlara malikdir.

4.2. Vergi orqanı tərəfindən ƏDV bəyannaməsinin elektron formada əvvəlcədən hazırlanaraq vergi ödəyicisinə göndərilməsi gələcəkdə qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq və vergidən yayınma riskləri müəyyən edildiyi təqdirdə vergi nəzarəti tədbirlərinin keçirilməsi hüquqlarını istisna etmir.

4.3. Vergi orqanı tərəfindən ƏDV bəyannaməsinin əvvəlcədən hazırlanaraq vergi ödəyicisinə göndərilməsi vergi orqanının qanunla müəyyən edilmiş qaydada vergi borclarına faizlər hesablamaq, bu şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək və dövlət büdcəsinə ödənilməsini təmin etmək hüquqlarını məhdudlaşdırmır.

4.4. Vergi orqanının bu Qaydaların 2.6-cı bəndinə uyğun olaraq "ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması" xidmətini dayandırmaq hüququ vardır.

## 5. Vergi orqanının vəzifələri

Vergi orqanları Vergi Məcəlləsinin 24-cü maddəsində və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə vergi orqanlarının təyinatına uyğun olaraq müəyyən edilmiş digər vəzifələri vardır.

## 6. Vergi ödəyicisinin hüquqları

6.1. Vergi ödəyicisinin Vergi Məcəlləsinin 15-ci maddəsində və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilmiş digər hüquqlara malikdir.

6.2. Vergi orqanı tərəfindən ƏDV bəyannaməsinin əvvəlcədən hazırlanaraq vergi ödəyicisinə göndərildikdə vergi ödəyicisi tərəfindən ƏDV bəyannaməsində göstərilən məlumatların Vergi Məcəlləsinin 85.5-ci maddəsi ilə müəyyən edilmiş 3 il müddətindən çox olmamaqla dəqiqləşdirilməsi hüququ vardır.

6.3. Vergi ödəyicisinin "ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması" xidmətindən imtina etmək hüququ vardır.

## 7. Vergi ödəyicisinin vəzifələri

7.1. Vergi ödəyicisinin Vergi Məcəlləsinin 16-cı maddəsində və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilmiş digər vəzifələri vardır.

7.2. Vergi orqanı tərəfindən ƏDV bəyannaməsinin əvvəlcədən hazırlanaraq vergi ödəyicisinə göndərilməsi onun vergilərin düzgün hesablaması vəzifəsindən azad etmir.

* * *

Azərbaycan Respublikası
Vergilər Nazirliyinin __
______ 20__-c_ il tarixli
____________ №-li əmri ilə
təsdiq edilmiş Qaydalara

Əlavə 1

# “ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması” xidmətinə qoşulması barədə

# BİLDİRİŞ №___

________________________________ bildirir ki, ___________________________________
(vergi orqanının adı)

___________________________________________________________________________
(vergi ödəyicisinin tam adı)

| VÖEN | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|

“Kiçik sahibkarlıq subyektlərinin ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması” Qaydalarına uyğun olaraq “__”________20___-c_ il tarixdən “ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması” xidmətinə qoşulmusunuz. Sizin ilkin olaraq 20___-c_ ilin ____ ayı üzrə ƏDV bəyannaməniz əvvəlcədən doldurularaq təsdiqlənməsi üçün Sizə göndəriləcəkdir.
Bildirişin verilmə tarixi: “____” ___________ 20__-c_ il.

___________ direktor ( _ direktorun müavini): ________________________

Vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası
Vergilər Nazirliyinin __
______ 20__-c_ il tarixli
_____________ №-li əmri ilə
təsdiq edilmiş Qaydalara

Əlavə 2

# "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidmətinə qoşulmasından imtina edilməsi barədə

# M Ə L U M A T

_______________ ünvanladığınız __ ______ 20__-c_ il tarixli __ №-li Ərizə ilə bağlı bildiririk ki,
(vergi orqanının adı)

_______________________________________________________________________________
_ (vergi ödəyicisinin tam adı)

VÖEN

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |

_______________________________________________________________________ "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidmətinə qoşulmasından imtina edilmişdir. Nəzərə almağınızı Sizdən xahiş edirik.

___________ direktor ( _ direktorun müavini): ________________________

Vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası
Vergilər Nazirliyinin __
______ 20__-c_ il tarixli
____________ №-li əmri ilə
təsdiq edilmiş Qaydalara

Əlavə 3

# "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidmətinin dayandırılması barədə

# M Ə L U M A T

________________________ ünvanladığınız __ ______ 20__-c_ il tarixli __ №-li Ərizə ilə
(vergi orqanının adı)

bağlı bildiririk ki, ____________________________________________________________

____________________________________________________________________________
(vergi ödəyicisinin tam adı)

| VÖEN | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|

____________________________________________________________________________
____ "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidməti 20__-c_ il tarixdən dayandırılmışdır. 20___-c_ ilin ____ ayı üzrə ƏDV bəyannamənizi adi qaydada dolduraraq təqdim etməyiniz Sizdən xahiş olunur.

___________ direktor ( _ direktorun müavini): ______________________

Vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası
Vergilər Nazirliyinin __
______ 20__-c_ il tarixli
_____________ №-li əmri ilə
təsdiq edilmiş Qaydalara

Əlavə 4

# ƏDV bəyannaməsinin təsdiqlənməsi barədə

# BİLDİRİŞ №___

________________________________ bildirir ki, ___________________________________
(vergi orqanının adı)

_____________________________________________________________________________________
(vergi ödəyicisinin tam adı)

| VÖEN | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|

"Kiçik sahibkarlıq subyektlərinin ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" Qaydalarına uyğun olaraq 20___-c_ ilin ____ ayı üzrə ƏDV bəyannaməniz təsdiqlənmişdir.

___________ direktor ( _ direktorun müavini): _______________________

Vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası
Vergilər Nazirliyinin __
______ 20__-c_ il tarixli
_____________ №-li əmri ilə
təsdiq edilmiş Qaydalara

Əlavə 5

# "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidmətinə vergi orqanı tərəfindən xitam verilməsi barədə

# M Ə L U M A T

__________________________________ bildirir ki, _________________________________
(vergi orqanının adı)

____________________________________________________________________________________
(vergi ödəyicisinin tam adı)

VÖEN

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |

_____________________________________________________________________ "ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidmətinə xitam verilmişdir. 20___-c_ ilin ____ ayı üzrə ƏDV bəyannamənizi adi qaydada dolduraraq təqdim etməyiniz Sizdən xahiş olunur.

___________ direktor ( _ direktorun müavini): _______________________

Vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)